
Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 107 (23.749)

*15 iyun 2021-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonuna səfərə gəliblər. Dövlətimizin başçısı və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olublar. Dövlətimizin başçısına su anbarının texniki göstəriciləri barədə məlumat verilib. Səfər zamanı Əhmədbəyli-Füzuli-Şuşa yolunda və Zəfər yolunda görülən işlərlə də tanışlıq olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyunun 14-də yeni tikilən "Füzuli" yarımstansiyasının açılışında iştirak ediblər. Dövlətimizin başçısına 110/35/10 kilovoltluq yarımstansiyada görülən işlər barədə məlumat verilib. Dövlətimizin başçısı "Füzuli" yarımstansiyasını işə salıb.

Prezident İlham Əliyev səfər zamanı Zəfər yolunun Xocavənd rayonundan keçən hissəsində inşa edilən körpüdə görülən işlərlə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Daşaltı kəndinin ərazisindən keçən hissəsində inşa olunacaq tunelin təməlini qoyub. Bildirilib ki, burada, ümumilikdə, iki tunel tikiləcək və onların hər biri ikizolaqlı olacaq. Tunellərin hər birinin uzunluğu 530 metr, eni isə 12 metr olacaq.






*Dünyada bir çox xalqların mövcudluğu yetişdirdiyi liderlərin xidmətləri sayəsində mümkün olmuşdur. Azərbaycan xalqı da xoşbəxt xalqlardandır ki, dahi şəxsiyyət Heydər Əliyev kimi bir siyasət nəhənginin yetirməklə milli ənənələr üzərində qurduğu dövlətçiliyini tarixin ən sərt sınaqlarından çıxararaq müstəqilliyini təmin etmişdir. Hələ ötən əsrin 70-80-ci illərindən respublikada milli müstəqilliyə etibarlı zəmin yaradaraq xilaskarlıq missiyasını həyata keçirən böyük lider Azərbaycanı, sözün həqiqi mənasında, Azərbaycana qaytararaq onun dünya dövlətləri sırasında ən layiqli yer tutmasına zəmin yaratmışdır. Vətəni özünün qibləgahı seçən böyük şəxsiyyət fədakar fəaliyyəti ilə Azərbaycanı kərpic-kərpic tikərək onun ideoloji-siyasi əsaslarını, milli konsepsiyasını yaratmışdır. Bu konsepsiya əsasında xalqın yüz illərlə arzusunda olduğu niyyətlər gerçəyə çevrilmiş, Azərbaycan layiq olduğu müstəqilliyə qovuşmuşdur.*

# Milli Qurtuluş Günü Azərbaycanın parlaq gələcəyinə gedən yolun təməlidir

Hələ SSRİ rəhbərliyində təmsil olunduğu zaman görkəmli dövlət xadimi Heydər Əliyev Kremlin ən nüfuzlu və aparıcı simalarından biri kimi daim Azərbaycanın gələcək müstəqilliyinə xidmət edən çoxsaylı addımlar atmış, ermənilərin məkrli torpaq iddialarına qarşı barışmaz mövqe tutmuş, Qorbaçov rejimini kəskin tənqid etmişdir. Məhz belə qətiyyətli və prinsipial mövqeyinə görə ulu öndər 1987-ci ildə Sov.İKP MK-nın Siyasi Bürosunun üzvlüyündən istefa vermişdir. Bununla da Azərbaycanın ağır və çətinliklərlə dolu dövrü başlanmış, tarixi torpaqlarımızın 20 faizi Ermənistan tərəfindən işğal edilmiş, Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədilmişdir. Ümummilli liderimiz Heydər Əliyev ali dövlət vəzifəsində olmasa da, Ona qarşı aparılan çirkin təbliğatlara baxmayaraq, həyatını təhlükə altında qoyaraq, 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə ozamankı sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını elə imperiyanın paytaxtında – Moskva şəhərində kəskin ittiham etmişdi. Bundan sonra dahi şəxsiyyətin Moskvada yaşaması mümkün olmamış və O, 1990-cı il iyulun 20-də Bakıya, sonra isə Naxçıvana qayıtmışdır. Xalqımızın böyük oğlunun Naxçıvana qayıdışı Azərbaycanın həyatında yeni mərhələnin başlanğıcına çevrilmiş, ümummilli liderin rəhbərliyi ilə Naxçıvanda müstəqil dövlət quruculuğu istiqamətində mühüm qərarlar qəbul olunmuş və Azərbaycanın müstəqillik yolunun əsası qoyulmuşdur.

Böyük şəxsiyyət Naxçıvanda fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə çoxşaxəli fəaliyyəti ilə Azərbaycan dövlətçiliyinin Naxçıvan məktəbini yaratmış, muxtar respublikada milli dövlətçiliyin qurulması istiqamətində nəhəng işlər görmüşdür. Həmin dövrdə Azərbaycanda baş verən hadisələr ölkəni faktiki olaraq müstəqilliyini itirmək həddinə gətirib çıxarmışdı. Azərbaycan xalqı varlığının, ölkənin bütövlüyünün, yenicə qazanılmış müstəqilliyin qorunub saxlanılmasını istəsə də, mövcud hakimiyyət və onun rəhbərləri buna heç cür qadir deyildi. Artıq vətəndaş müharibəsi başlamışdı. 1993-cü il iyunun 4-də Gəncədə qarşıdurma yaşanmış, qardaş qanı tökülmüşdü. Gəncədə baş verən hadisələrə də ilk dəfə iyunun 5-də ulu öndər Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi münasibət bildirmişdi. Beləliklə, Azərbaycan real olaraq parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Məhz belə bir çətin dövrdə xalqın təkidli tələb və xahişi ilə görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü il iyunun 15-də yenidən siyasi hakimiyyətə qayıtmışdır. Bununla da ölkəmizdə milli qurtuluş hərəkatının əsası qoyulmuş və 15 iyun müstəqil Azərbaycan dövlətinin tarixinə "Milli Qurtuluş Günü" kimi daxil olmuşdur. Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etmişdir.

Ümummilli liderin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı elə bir dövrdə baş vermişdir ki, Azərbaycanda iqtisadiyyat tamamilə məhv edilmiş, cəbhədə hərbi uğursuzluqlar artmış, torpaqların 20 faizi işğal olunmuş, vətəndaş qarşıdurması pik həddə çatmışdı. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ulu öndərin Naxçıvandan Bakıya qayıdışını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir: ***"Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskar missiyasına – AZƏRBAYCANI AZƏRBAYCANA QAYTARMAQ məramına xidmət edir".***

Dahi rəhbərin ali hakimiyyətə gəlişi ilə qısa müddətdə milli istiqlalımızın qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində misilsiz işlər görüldü. Müdrik şəxsiyyətin uzaqgörən siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu. Görkəmli dövlət xadiminin tarixi xidmətləri sayəsində Azərbaycanda iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı. Xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı. Ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunmağa başladı, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Ulu öndərin böyük səyləri nəticəsində müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, hərtərəfli, möhtəşəm yüksəliş baş verdi. Ümumilikdə, 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin xalqımız qarşısında misilsiz və əvəzolunmaz xidmətləri Onu xalqımızın ƏSL XİLASKARINA çevirdi.

Ümummilli liderimiz müstəqil Azərbaycana rəhbərliyi dövründə xalqımızın min illərin sınağından çıxmış milli dəyərlərinə, mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına, folkloruna həddən artıq bağlı olmaqla, onların olduğu kimi xalqa qaytarılması qayğısına qalmışdır. Dahi rəhbərin Vətən və xalq qarşısında göstərdiyi böyük xidmətlərdən biri də milli dövlətçiliyimizin möhkəmləndirilməsində böyük rol oynayan Azərbaycançılıq ideologiyasıdır. Məhz bu ideologiya 2001-ci il noyabrın 9-10-da Bakıda dünya azərbaycanlılarını bir araya topladı və ölkəmizin tarixində ilk dəfə olaraq Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Beləliklə, Azərbaycandan kənarda yaşayan azərbaycanlıların dövlətçiliyimizin möhkəmləndirilməsində, ölkəmizin dünyada tanıdılması və təbliğində rolu müəyyənləşdirildi.

Ötən dövrdə ümummilli liderimiz Heydər Əliyevin parlaq ideyalarını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizi hərtərəfli inkişaf etdirərək onu Cənubi Qafqazın liderinə çevirdi. Təsadüfi deyil ki, bu gün inkişaf etmiş ölkələrin 50-60 il ərzində getdikləri yolu Azərbaycan 28 il ərzində qət edərək dünyanın ən nüfuzlu ölkəsinə çevrildi. Elə bu nüfuzun, gücün nəticəsidir ki, Azərbaycan ötən il 44 gün ərzində mənfur erməni ordusunu tamamilə darmadağın edərək 30 ilə yaxın işğalda saxlanılan torpaqları qəsbkarlardan azad etdi. Əgər ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyini parçalanmaqdan, məhv olmaqdan qoruyub xilas etdisə, cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü pozmuş qara əlləri kəsərək bu müstəqilliyin tamlığını bərpa etdi.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da bu Qurtuluşdan payını alaraq sürətli inkişaf yolu keçmişdir. Uzun illər blokada şəraitində yaşamağa məcbur olan muxtar diyar Heydər Əliyev ideyalarının böyük sədaqətlə davam etdirilməsi nəticəsində inkişafın yeni modelini ortaya qoymuşdur. Bir zamanlar enerji, nəqliyyat, rabitə və digər kommunikasiya xəqlərinin kəsildiyi, qida məhsullarının, bütövlükdə, idxaldan asılı olduğu muxtar respublika bu gün Azərbaycanın ən inkişaf etmiş regionu kimi tərəqqi dövrünü yaşamaqdadır. Bu il mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlmiş ölkə başçısı cənab İlham Əliyev bu inkişafı ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb"*** fikirləri ilə təsdiqlədi. Cənab İlham Əliyevin böyük iradəsi, qətiyyəti və şəxsi təşəbbüsü ilə 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladıqları birgə Bəyanata salınmış xüsusi bənd isə Naxçıvanı Zəngəzur dəhlizi vasitəsilə Şərq-Qərb beynəlxalq tranzit qovşağına bağlamaqla onu Avropa və Asiya arasında mühüm əhəmiyyəti olan regiona çevirir.

*Təbii ki, müstəqilliyimizin bərpasından sonra Azərbaycanın bu qədər böyük nailiyyətlər əldə etməsinin yeganə səbəbi görülən bütün işlərin Heydər Əliyev ideyaları ilə bilavasitə bağlı olmasıdır. Məhz bu ideyaların layiqincə davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanın, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının nüfuzu, strateji çəkisi hər keçən gün daha da artır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir".***

**"Şərq qapısı"**

# “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” mövzusunda konfrans keçirilib





Naxçıvan Dövlət Universitetində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə keçirilən konfransı universitetin rektoru, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev açıb. Rektor Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbovun “Azərbaycan” qəzetinin 4 iyun 2021-ci il tarixli sayında dərc olunmuş, bir sıra mərkəzi informasiya agentliklərinin saytlarında, muxtar respublikanın kütləvi informasiya vasitələrində yer alan “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” adlı konseptual məqaləsini təhlil edib. Qeyd olunub ki, məqalədə görkəmli dövlət xadiminin unikal, təkrarolunmaz liderlik fəaliyyəti, ümummilli liderin böyük xilaskarlıq missiyasını, siyasi varislik məsələsində də Azərbaycanı böyük uzaqgörənliklə düşünərək cənab İlham Əliyev kimi ölkəni regionun liderinə çevirəcək bir siyasi xadimə etibar etməsi elmi-siyasi cəhətdən dərin təhlil edilmişdir.

Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, siyasi nəzəriyyələrdə müxtəlif meyarlara görə liderlərin tipologiyasını aparırlar. Bu, liderliyə hansı aspektdən və hansı sosial-siyasi kontekstdə yanaşmadan asılı olur. Bunlardan başqa, liderləri təsir miqyaslarına görə də təsnifatlandıran nəzəriyyəçilər vardır. Müasir nəzəri təlimlərdə ümummilli liderlər, bütövlükdə, xalq və dövlət miqyasında, ölkə masştabından kənarda da real liderlik edə bilən şəxsiyyətlər kimi səciyyələndirilir. Onlar mövcud sosial-siyasi, iqtisadi və geosiyasi vəziyyəti ciddi surətdə dəyişmək qüdrətinə malik olurlar. Ümummilli liderlər ölkənin sosial-siyasi strukturunu yenidən təşkil edə bilirlər. Azərbaycan xalqının ulu öndəri, görkəmli dövlət xadimi Heydər Əliyev liderlikdən ümummilli liderliyə qədər inkişaf edən və həm ölkəsində, həm də dünyada əsl lider olaraq qəbul edilən fərqli şəxsiyyətdir. Liderlik haqqında dünya təlimindəki əsas keyfiyyətlər Heydər Əliyevin simasında ümumiləşir.

Qeyd olunub ki, Heydər Əliyev postsovet məkanında yeganə ölkə rəhbəri və Prezident idi ki, görkəmli dövlət başçısı funksiyasını ümummilli liderliklə üzvi surətdə birləşdirə bilmişdi. Müasir siyasi-hüquqi təlimlərin görkəmli yaradıcılarının qənaətinə görə, hər bir rəhbər millətə real lider ola bilmir və əksinə, heç də hər liderin ölkəyə səmərəli rəhbərlik etməyi bacarmadığı halları olur. Bununla bağlı tarixdə və günümüzdə kifayət qədər misallar var. Bu səbəbdəndir ki, Heydər Əliyevin ümummilli lider kimi yüksək dövlətçilik-idarəçilik qabiliyyəti və bacarığı ilə dövlətə yüksək səviyyəli rəhbərliyi bir-birini üzvi surətdə tamamlayır. Məsələnin bu cəhətdən təhlili digər vacib məqamlarla yanaşı, Heydər Əliyevin Azərbaycanda müasir liderlik ənənəsinin banisi və həm də dünya miqyaslı lider olmasının əsas parametrlərini dərk etməyə şans yaradır. Heydər Əliyev liderliyi qüdrətli ümummilli lider səviyyəsinə qaldırmış nadir dövlət xadimlərindən biridir. Bu qeyri-adi liderlik istedadına malik olan dövlət xadiminin keçirdiyi çətin, məsuliyyətli və şərəfli yolun təcrübəsi əsasında ulu öndərin liderlik istedadının başlıca təşkiledici prinsiplərini müəyyənləşdirmək mümkündür.

Diqqətə çatdırılıb ki, Heydər Əliyev lider və dövlət başçısı kimi unikal, təkrarolunmaz və XX əsrdə kimsənin yaşamadığı ibrətamiz həyat və mübarizə yolu keçmişdir. Heydər Əliyev yeganə siyasi xadimdir ki, iki böyük tarixi-siyasi epoxada və keçid dövründə ümummilli lider statusuna yüksələ bilmişdir. Keçmiş sovet hakimiyyəti mərhələsində də, müstəqillik dövründə də Heydər Əliyev təkrarsız liderlik istedadına malik görkəmli dövlət xadimi olduğunu isbat etmişdir. Bu dahi şəxsiyyətin çətin və mürəkkəb tarixi şəraitdə Naxçıvan Muxtar Respublikasını işğaldan xilas etməsi, yaşatması və inkişaf etdirməsi, bu həssas regionda Azərbaycanın ərazi bütövlüyünü qoruyub möhkəmləndirməsi də əsl liderlərə xas olan böyük xilaskarlıq missiyasının yüksək səviyyədə həyata keçirilməsinin nümunəsidir.

Vurğulanıb ki, Heydər Əliyev hələ sovet dövründə elan olunmamış ümummilli lider kimi fəaliyyət göstərə bilmişdir. Və bu reallıq o dərəcədə məsuliyyətli idi ki, qısqanc SSRİ rəhbərləri içərisində həmin miqyasa çatmaq və onu qoruyub saxlamaq ayrıca qabiliyyət, xüsusi liderlik tələb edirdi. Heydər Əliyev Sovet İttifaqı dövründə SSRİ-yə daxil olan müttəfiq respublikalardan birinin liderliyindən Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini səviyyəsinə yüksəlmək qədər böyük missiyanı gerçəkləşdirmiş və özünün böyük liderlik istedadı ilə həm də qoruyub saxlamağı və yaşatmağı da uğurla həyata keçirmişdir. Bu mənada, Heydər Əliyevin SSRİ dövründəki özünəməxsus ümummilli liderlik fəaliyyətinin əsas məqamlarının nəzəri-hüquqi baxımdan geniş tədqiq edilməsi ölkə və dünya üçün də əhəmiyyətlidir. Çünki ikinci elə bir nümunə yoxdur ki, ərazicə kiçik respublikada bütün fəaliyyət sahələri mərkəzdən idarə edildiyi şəraitdə ölkə rəhbəri SSRİ rəhbərliyinin razılığı olmadan real surətdə xalqa liderlik edə bilsin, onun təhlükəsizliyini, mövcudluğunu və inkişafını bacarmaq vəzifəsini qətiyyətlə həyata keçirsin. Sovet dövründə Heydər Əliyevin xalqla bir olması təcrübəsi insanlarda bu qüdrətli liderə böyük inam, yüksək ehtiram və etibarlılıq hissi yaratmışdı. Bu nəinki Azərbaycanın və Türk dünyasının siyasi ənənəsində, hətta dünya miqyasında tarixi hadisə idi.

Sovetlər Birliyi dövründə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə milli kadrların hazırlanması, iqtisadi, mədəni və digər sahələrdə böyük nailiyyətlərin əldə olunduğunu bildirən Seymur Talıbov qeyd edib ki, XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir əsrdə ikinci dəfə məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdır. Həmin dövrdə ölkəyə səriştəsiz adamların rəhbərlik etməsi və düşmənin respublikamızın ərazi bütövlüyünə davamlı təcavüzü, bütövlükdə, xalqımızı “ölüm-qalım” faktı qarşısında qoymuşdu. Məhz belə çətin məqamda tale ikinci dəfə Heydər Əliyevə lider-xilaskar rolunu həyata keçirmək üçün imkan yaratmışdır. Xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev faktiki olaraq xilaskar lider missiyasını həyata keçirmişdir. Heydər Əliyev qısa müddətdə bu çətin tarixi mərhələdə də siyasi liderliklə ümummilli liderliyin və dövlət rəhbərliyi ilə ümummilli maraqların sintezini yarada bilən şəxsiyyət olduğunu sübut etmişdir.

Heydər Əliyevin lider və dövlət başçısı kimi böyük xidmətləri sırasında siyasi varisliyi yüksək səviyyədə təmin etməsini ayrıca toxunan Seymur Talıbov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi dünya və ölkə miqyaslı siyasi lider kimi yetişdirməklə Heydər Əliyev Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısında misilsiz tarixi xidmət göstərmişdir. Prezident İlham Əliyev ölkəyə rəhbərliyi dövründə sübut etdi ki, o, Heydər Əliyev məktəbini yüksək səviyyədə mənimsəmiş və yeni tarixi epoxanın irəli sürdüyü çağırışları qabaqlamış, mühüm strateji zəkaya və praktik səmərəli fəaliyyət metodlarına malik olan dünya miqyasında yenitipli liderdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın çoxəsrlik tarixi salnaməsinə Zəfər günü həqiqətlərini yazmaqla bərabər, həm də ölkəmizi bütün sahələr üzrə irəli aparmağı bacaran, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli lider kimi qəbul olunur. Möhtərəm Prezidentin qətiyyətlə həyata keçirməyə başladığı Böyük Qayıdış proqramı həm Qarabağın, həm də geniş mənada Azərbaycanın yeni sabahlarını aydın surətdə təsəvvür etməyə imkan verir. Bütün bunlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün dünyanın söz sahibi olan əsl liderlərindən biri kimi qəbul edilir.

Diqqətə çatdırılıb ki, müstəqil Azərbaycan dövləti ümummilli lider Heydər Əliyevin mükəmməl dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində özünün əsas siyasi-ideoloji və iqtisadi dayaqlarını qurub möhkəmləndirmişdir. Bu gün Prezident İlham Əliyevin simasında müstəqil Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Əməkdaşlıq Şurasında, Ümumdünya Səhiyyə Təşkilatında, digər mötəbər beynəlxalq qurumlarda tutduğu mövqe, qazandığı böyük nüfuz yalnız superdövlətlərlə müqayisə oluna bilər.

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Böyük liderlik missiyası” adlı filmə baxış olub.

**“Şərq qapısı”**

# Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilib

*AMEA Naxçıvan Bölməsində 15 İyun – Milli Qurtuluş Günü münasibətilə “Milli dövlətçiliyimizin xilaskarı” mövzusunda konfrans keçirilib.*

“15 İyun – Milli Qurtuluş Günü dövlətçilik ənənələrimizin qorunub saxlanılması, inkişafın yeni mərhələsinə keçidin təməlinin qoyulduğu tarixdir” fikrini konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev söyləyib. Natiq çıxışında bildirib ki, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın düçar olduğu acınacaqlı vəziyyət dövlət idarəçiliyinə səriştəsiz kəslərin gətirilməsi, milli təəssübkeşliyin olmamasından qaynaqlanırdı. Ulu öndər Heydər Əliyevin belə bir dövrdə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı məhvolma təhlükəsindən xilas etdi.

İsmayıl Hacıyev dahi öndərin uzaqgörən siyasətinin bu gün də ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb.

Konfransda Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbovun “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” məqaləsi təhlil olunub.

Vurğulanıb ki, məqalədə Azərbaycan xalqının ulu öndəri, görkəmli dövlət xadimi Heydər Əliyev liderlikdən ümummilli liderliyə qədər inkişaf edən, həm ölkəsində, həm də dünyada əsl lider olaraq qəbul edilən fərqli şəxsiyyət kimi təhlil olunur.

Qeyd edilib ki, bu dahi şəxsiyyətin çətin və mürəkkəb tarixi şəraitdə Naxçıvan Muxtar Respublikasını işğaldan xilas etməsi, yaşatması və inkişaf etdirməsi, bu həssas regionda Azərbaycanın ərazi bütövlüyünü qoruyub möhkəmləndirməsi də əsl liderlərə xas olan böyük xilaskarlıq nümunəsidir.

Vurğulanıb ki, ulu öndərin sovet dövründə Azərbaycanı ölkə kimi, XX əsrin 90-cı illərində isə respublikamızı müstəqil dövlət kimi xilas etməsi prosesi bu siyasətin layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri, tarix üzrə fəlsəfə doktoru dosent İlhami Əliyevin, dosentlər Asəf Orucovun və Zeynəb Quliyevanın məruzələri dinlənilib. Sonda konfrans iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

“Naxçıvan” Universitetində “Xalqımızın şərəfli tarixi – 15 İyun – Milli Qurtuluş Günü” mövzusunda keçirilən elmi konfransda çıxış edən universitetin rektoru, dosent Nurlana Əliyeva bildirib ki, Milli Qurtuluş Günü xalqımızın çətinliklərdən qurtulub, güclü bir dövlətin bünövrəsinin qoyulduğu, xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi əlamətdar edən isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan dahi şəxsiyyət – ulu öndər Heydər Əliyevdir. Rektor qeyd edib ki, ***“Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır”***, – deyən ümummilli lider Heydər Əliyevin ideyaları ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

“Naxçıvan” Universitetinin müəllimi Rəna Qurbanova çıxışında Azərbaycanın Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildiyini vurğulayıb.

Konfransda tələbələrin bədii qiraəti dinlənilib, hazırlanmış videoçarx nümayiş olunub.

Dünən Naxçıvan Müəllimlər İnstitutu və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının birgə təşkilatçılığı ilə keçirilən konfransı giriş sözü ilə açan Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azad Novruzov Milli Qurtuluş Gününün Azərbaycan dövlətçiliyinin real müstəqilliyə qovuşması tarixinin başlanğıcı kimi səciyyələndirib.

Konfransda çıxış edən Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, psixologiya üzrə fəlsəfə doktoru, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının sədri Çapay Quliyev öz məruzəsini Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbovun “Böyük liderlik missiyası: Heydər Əliyevdən İlham Əliyevə” adlı konseptual məqaləsinin təhlilinə həsr edib. Məruzəçi məqaləyə istinadən bildirib ki, ötən əsrin 90-cı illərində xalqın tələbi və dəstəyi ilə 1993-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilmiş Heydər Əliyev faktiki olaraq Xilaskar lider missiyasını həyata keçirməyə müvəffəq oldu. Məqalədə də vurğulandığı kimi ümummilli liderimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi dünya və ölkə miqyaslı siyasi lider kimi yetişdirməklə Azərbaycan xalqı və müstəqil dövlətimiz qarşısında misilsiz tarixi xidmət göstərib.

Konfransda “Qayıdışdan qurtuluşa” mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə Azərbaycanı həm siyasi, həm də sosial-iqtisadi böhrandan çıxararaq inkişaf edən respublikaya çevirdiyini, hər iki tarixi mərhələdə yalnız milli amallarla yaşayıb fəaliyyət göstərdiyini faktlarla diqqətə çatdırıb.

Konfransın sonunda Naxçıvan Müəllimlər İnstitutunun tələbələri tərəfindən ədəbi-bədii kompozisiya təqdim olunub.

Həmin gün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş sərgi təşkil edilib. 15 rəssamın bir-birindən maraqlı 30 əsərindən ibarət sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**

# Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının konfransı keçirilib

***İyunun 14-də Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının konfransı keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının hesabatı dinləniləcək, daha sonra təşkilatın yeni İdarə Heyətinin üzvləri və qurumun sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Yaşar Xəlilovun hesabatı dinlənilmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı müntəzəm olaraq muxtar respublikanın ictimai-mədəni həyatında yaxından iştirak edir. Ötən 5 ildə təşkilat tərəfindən 10 müəllif və 1 hesabat konserti, 2 mahnı müsabiqəsi, 7 yubiley tədbiri, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində, Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində və Naxçıvan Musiqi Kollecində ustad dərsləri keçilmişdir. Hesabat dövründə təşkilat tərəfindən ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə və muxtariyyətin 95 illiyinə həsr olunmuş mahnı müsabiqələri, tanınmış bəstəkar və musiqiçilərin yubileyləri münasibətilə konsertlər, Naxçıvan Muxtar Respublikasının Bəstəkarlar Təşkilatının 40 illik yubileyinə həsr olunmuş hesabat konserti keçirilmişdir. Təşkilatın üzvlərinin musiqi nəzəriyyəsinə aid dərslikləri, kitabları nəşr olunmuş, təqdimat mərasimləri təşkil olunmuşdur. Yaşar Xəlilov fəaliyyətləri üçün yaradılan şəraitə görə təşkilatın üzvləri adından Ali Məclis Sədrinə minnətdarlıq etmişdir.



Hesabat məruzəsindən sonra İdarə Heyətinin yeni tərkibi seçilmişdir.

Təşkilatın üzvləri Vidadi Heydərov və Səməd Əsgərov çıxış edərək Xəlilov Yaşar Sudef oğlunun Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri vəzifəsinə namizədliyini irəli sürmüşlər.

Təklif səsə qoyularaq qəbul olunmuş və Yaşar Xəlilov Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri seçilmişdir.

Yaşar Xəlilov ona göstərilən etimada görə təşkilat üzvlərinə minnətdarlığını bildirmiş, etimadı doğrultmaq üçün səylə çalışacağını qeyd etmişdir.

Daha sonra Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının Nəzarət-Təftiş Komissiyasının tərkibi seçilmiş, konfransın qərarı qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli konfransda çıxış edərək demişdir ki, bu gün Naxçıvan Muxtar Respublikasında musiqi sənətinin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Bəstəkar və musiqiçünasların yaradıcılığının inkişafı üçün hər cür şərait yaradılır. Muxtar respublikada uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilməsi, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının, Naxçıvan Musiqi Kollecinin maddi-texniki bazalarının gücləndirilməsi, Bəstəkarlar Təşkilatının fəaliyyətinin təmin edilməsi bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir. Muxtar respublika musiqiçilərinin əməyi dövlət tərəfindən qiymətləndirilir, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına, Prezident təqaüdü və mükafatlarına layiq görülürlər. Təəssüf ki, ötən 5 ildə ictimai və yaradıcılıq təşkilatı kimi Bəstəkarlar Təşkilatının gördüyü işlər qarşıya qoyulan tələblər səviyyəsində deyil.

Ülvi Hüseynli bildirdi ki, muxtar respublikamızı, o cümlədən onun inkişafını və müasirləşməsini vəsf edən əsərlərin yazılması, xalq mahnılarının sistemli şəkildə təbliğ olunması, unudulmuş mahnıların bərpa olunması diqqətdə saxlanılmalıdır. Təşkilat üzvlərinin müəllif konsertləri keçirilməli, hesabat konsertlərinin sayı artırılmalıdır. Naxçıvan Dövlət Universitetində aid ixtisasının tələbələri ilə iş aparılmalı, istedadlı gənclərin üzə çıxarılması istiqamətində tədbirlər görülməli, onların yaradıcılığı istiqamətləndirilməli, təşkilata yeni üzvlər qəbul edilməlidir. Muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində, Naxçıvan Musiqi Kollecində, Naxçıvan Dövlət Universitetində bəstəkarlar və musiqişünaslarla tələbə və şagirdlərin görüşləri təşkil olunmalı, ustad dərsləri davamlı xarakter almalıdır.

Bəstəkarlar Təşkilatının yeni seçilən İdarə Heyəti və sədri işdə dönüş yaratmalı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qarşıya qoyduğu vəzifələr əsas fəaliyyət istiqaməti olmalıdır.

**"Şərq qapısı"**

# Şərur rayonunda "Şərq qapısı" qəzetinin yüzillik yubileyi münasibətilə tədbir olub

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar iyunun 14-də Şərur şəhərindəki "Bahar" kinoteatrında mətbu orqanın yubiley tədbiri keçirilib.*

Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşmüş, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirmişdir. Qəzet Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135







Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Vüsalə Ağayeva açaraq "Şərq qapısı" qəzetinin mətbuat tariximizdəki əhəmiyyətindən, muxtar respublikanın sosial-iqtisadi inkişafının, ictimai-siyasi həyatının tarixləşdirilməsində mətbuatın əhəmiyyətli rolundan bəhs edib.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova bugünkü mətbuatımızın inkişafını 15 İyun – Milli Qurtuluş Gününün bəhrəsi kimi dəyərləndirib, 100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan danışıb. Bildirilib ki, 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulmuşdur. Vərəqə şəklində çap olunan "Cavanlar həyatı" qəzeti iki aya yaxın müddətdə fəaliyyət göstərmiş, 1921-ci ilin dekabrından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet nəşr olunmuşdur. 1922-ci ilin aprel ayından nəşr edilməyə başlayan "Şərq qapısı" qəzeti isə müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır.

Vurğulanıb ki, ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzetin 50 illik yubileyində "Şərəf nişanı" ordeni ilə təltif olunması həmin dövrdə Azərbaycana rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin mətbuata böyük qayğısının təzahürü idi.Tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən "Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir.

Baş redaktor çıxışında 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin yaradılmasının "Şərq qapısı" qəzetinin peşəkarlıq fəaliyyətinin yüksəldilməsinə əhəmiyyətli təsirindən danışıb. Qeyd edilib ki, "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuş, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması və bu sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Baş redaktor jurnalistikanın inkişafına göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. illik yubileyində – 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Rövşən Hüseynov qeyd edib ki, bu gün muxtar respublikada günün tələblərinə cavab verən qəzet nəşri üçün müasir iş şəraiti yaradılmışdır. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlamış, sayt 2019-cu ildə tamamilə yenilənmişdir.

Tədbirdə Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının sədri, təqaüdçü-müəllim Vidadi Süleymanov, "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov, Şərur Rayon Birləşmiş Həmkarlar Təşkilatının sədri Ünbülbanu Musayeva, "Şərurun səsi" qəzetinin əməkdaşları Püstə Məmmədova, Heydər Məmmədov çıxış edərək "Şərq qapısı" qəzetinin fəaliyyətindən, milli mətbuatımızın inkişafındakı rolundan ətraflı söhbət açıblar. Tədbir zamanı qəzetin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən videoslayd nümayiş olunub.

Tədbirin sonunda "Şərurun səsi" qəzetinin redaktoru, Əməkdar jurnalist Elman Məmmədova "Şərq qapısı" qəzetinin Fəxri fərmanı və hədiyyələr, qəzetlə fəal əməkdaşlıq edən digər qələm sahiblərinə hədiyyələr təqdim olunub.

**Nail ƏSGƏROV**

# "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" təlimi üzrə yekun qiymətləndirmə aparılıb



*Gənclər arasında maliyyə savadlılığının artırılması, eləcə də bank və sığorta sistemində karyera qurmağı arzulayan tələbələrə dəstək olmaq məqsədilə cari il mart ayının 3-də "Naxçıvanbank" və "Naxçıvansığorta" ASC-ləri Naxçıvan Dövlət Universitetində, aprel ayının 4-də isə "Naxçıvan" Universitetində "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" adlı müsabiqə xarakterli təlim olub.*

Təlimdə "Naxçıvanbank" və "Naxçıvansığorta" ASC-nin peşəkar heyəti müxtəlif mövzulara toxunaraq tələbələri bank və sığorta sektoru ilə tanış edib, onlara bir sıra praktik biliklər və tövsiyələr verib. Layihənin müzakirə xarakterli ikinci hissəsində isə əvvəlcə tələbələrin suallarını cavablandırılıb, onların dinləmə, analiz və nitq qabiliyyətini dəyərləndirəcək suallar ünvanlandırılıb. Təlimin sonunda 200 iştirakçı arasından fərqlənən 14 tələbə seçilərək "Naxçıvanbank" və "Naxçıvansığorta" ASC-də 15 günlük praktik təcrübə keçmək şansı əldə edib.

İyunun 14-də "Naxçıvanbank" və "Naxçıvansığorta" Açıq Səhmdar cəmiyyətlərinin təşkilatçılığı, Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinin iştirakı ilə "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" təlimi üzrə yekun qiymətləndirmə mərasimi keçirilib. Tədbirdə çıxış edən "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Azər Məmmədov bildirib ki, cəmiyyət Azərbaycan Respublikasının ilk regional bankı olaraq 11 sentyabr 2008-ci il tarixdən fəaliyyət göstərir. Bu müddət ərzində "Naxçıvanbank"ın əsas missiyası əhaliyə, habelə kiçik və orta sahibkarlıqla məşğul olan şəxslərə universal bank və maliyyə xidmətləri göstərməkdir. Qeyd edilib ki, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərindən təlimin ilk mərhələsində seçilən 15 tələbənin "Bankçılıqda ilk addım və sığortanın mahiyyəti" adlı layihə çərçivəsində bankda öz potensiallarını reallaşdırmaq və yeni təcrübə toplamaq imkanı yaratmaq məqsədilə 15 günlük təcrübə keçməsi üçün şərait yaradılıb.

Qeyd edilib ki, 15 günlük təcrübə zamanı bankın müxtəlif şöbə və departamentlərində təcrübə keçən tələbələr əsl komanda işi ilə tanış olub və yüksək dərəcədə ixtisaslı və təcrübəli əməkdaşlarla çalışaraq layihələrdə, əməliyyatlarda iştirak ediblər. Layihədə iştirakçı olmuş 15 tələbənin hər biri təcrübə müddətini uğurla başa vurmuş hesab edilir. Təcrübəçi tələbələrdən 4-ü isə xüsusi fəallıq göstərdiyinə görə təcrübələrini fərqlənmə sertifikatı ilə başa vurub.

Tədbirin növbəti hissəsində təcrübə proqramını və proqramın sonunda keçirilən imtahan mərhələsini uğurla başa vurmuş tələbələrə "Naxçıvanbank" və "Naxçıvansığorta" ASC-də karyera imkanları barədə məlumat verilib. İmtahan mərhələsini müvəffəqiyyətlə bitirən tələbələr sertifikatla, fərqlənmə ilə başa vuran tələbələr isə sertifikat və dəyərli hədiyyələrlə təltif olunublar.

**Gülcamal TAHİROVA**

*Əfsanəyə dönən ömürlər*

## Şəhidlik elə bir zirvədir ki, oradan Vətən görünür

***Ordumuzun uğurlu əməliyyatları nəticəsində illərdir, qor bağlayan yaramız olan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Silahı dostə qürur, düşmənə ölüm gətirən ordumuz xalqımıza tarixin ən şanlı Qələbə gününü yaşatdı. O zaman ki Qubadlıda, Zəngilanda, Şuşada azan oxundu, himnimiz səsləndi, ay-ulduzlu bayrağımız yüksəklərdə dalğalandı, illər öncə bu torpaqlar uğrunda canından keçən şəhidlərimizin nigaran qalan ruhları ağ göyərçinə dönüb azad Qarabağımızın səmasında qanad çaldı, yurdumuza boylandı, "Gözün aydın, Vətən!" – dedi. Qəhrəman oğullarımız öz həyatını xalqımızın azadlığı, ərazi bütövlüyü uğrunda qurban verdi.***



Tarixboyu qəhrəman bir el kimi tanınan Naxçıvanın nər igidləri də bu 44 günlük Vətən müharibəsində zəfər dastanı yazdı. Onlar doğulduqları torpaqdan yüzlərlə kilometr uzaqda "Hər qarışı bizimdir, bölünməz Vətənimizdir, öncə Vətəndir", – deyib canlarından keçdilər. Vətən andı içərək bu yola çıxdılar. Qazi, şəhid oldular, yollarından dönmədilər, qələbə sevinci yaşatdılar xalqımıza. Əbədiyyətə yüksələn oğullarımız tarixə öz adlarını qanları ilə həkk etdilər. Bu gün haqqında danışacağımız qəhrəman qədim yurdumuzun dağlar qədər məğrur diyarı Şahbuz rayonunun Külüs kəndində dünyaya gəlib.

Mayor Rahib Babayev xidmətinin səkkiz ilini Murov zirvəsində keçirib. O, hərbi liseyi bitirəndən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini də 2006-cı ildə uğurla tamamlayıb. İlk xidmətinin beş ilini Sumqayıtda, sonra Şəmkirdə və Murovdağda davam etdirib. Qəlbi Vətən eşqi ilə döyünən Rahib də illərdir, üryində intiqam hissi bəsləyir, düşmənə layiqli cavab verməyə can atır, torpaqlarımızı düşməndən azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyirdi. Tarixin o günü – əks-hücum əmrinin gəldiyi gün o da digər igidlər kimi qələbə naminə döyüşə can atdı. Öz taboru ilə düşmənin bir neçə postunu dağıdan komandir iki dəfə yaralanmasına baxmayaraq, döyüş mövqeyini tərk etmədi. Yaralanan əsgərlərini ölümdən qurtararaq şəhidlik zirvəsinə ucaldı. Ondan yadigar qalan üç övladı və igidlik yoludur.

Həyat yoldaşı Aygün xanım deyir ki, o, xidmətinin çoxunu keçilməz dağ zirvələrində etdiyi üçün çox gec-gec gəlirdi evə, uşaqlarını doyunca görə bilməsə də, Vətənə xidmət hər amalın ən alisidir. Bir vaxt olacaq övladlarım böyüyəcək onlar öz ataları ilə qürur duyacaqlar, – deyirdi.

Rahibin Sumqayıtda və Şəmkirdə işlədiyi vaxtlarda komandiri Polad Həşimov olub. Onun kimi hərbçilərlə birlikdə öyrənib hərb sənətinin sirlərini. Generalın şəhid olması Rahibi o qədər təsirləndirmişdi ki, hər gün can atırdı ki, qisasını alsın onun. Getdi, aldı qisasını şəhidlərimizin. Bu yolda dünyanın ən şirin neməti olan canından keçdi. O, Vətəni əzizlərindən, ailəsindən, övladlarından çox sevdi.

Rahib Babayev Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 90, 95, 100 illik yubiley, qüsursuz xidmətə görə ikinci və üçüncü dərəcəli medallar ilə təltif edilib. Vətən müharibəsində göstərdiyi şücaətə görə Prezident cənab İlham Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni və "Vətənə xidmətə görə" medalı ilə təltif edilib.

Onun ən böyük arzusu Murovu aşıb Kəlbəcərə getmək olub. Ruhun şad olsun, qəhrəman, təkcə Kəlbəcər yox, Şuşa, Laçın da, bütöv Qarabağ da azadlığa qovuşdu sənin kimi oğulların canı bahasına. Siz öz canınızla can verdiniz, illərdir, düşmən tapdağında qalan yurdlarımıza. İndi Qarabağın hər kəndində, şəhərində qanınız, canınız bahasına göylərə yüksəlir, dalğalanır Azərbaycan bayrağı. Üçrəngli bayrağımız ucalıqdan enməsin deyə, canından keçən Vətən oğulları sizin igidliyiniz isə əbədiyyən çiçək olub Vətən torpağında bitəcək, sevgi olub ürəklərdə yaşayacaq.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Şərur şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanı keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 14 aprel tarixli Sərəncamı ilə Şərur şəhərində yaradılmış Fizika-Riyaziyyat Təmayüllü Liseydə əlverişli tədris şəraitinin nəticəsidir ki, qəbulu müsabiqə yolu ilə aparılan təhsil ocağında oxumaq üçün müraciət edən şagirdlərin sayı hər il artmaqdadır. 2021-2022-ci tədris ili üzrə Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul imtahanı iyunun 11-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhər 11 nömrəli tam orta məktəbdə keçirilib. İmtahanda iştirak etmək üçün aprelin 1-dən mayın 25-dək aparılmış sənəd qəbulunda ümumtəhsil məktəblərinin VI sinfini bitirən 407 oğlan şagird qeydiyyatdan keçib.

Müsabiqədə şagirdlərə Azərbaycan dili fənni üzrə 20, riyaziyyat və fizika fənlərinin hər biri üzrə 25, ingilis dili fənni üzrə 15, coğrafiya, tarix, biologiya fənlərinin hər biri üzrə 5 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün 150 dəqiqə vaxt verilib. Test formatında keçirilən imtahanda ən yüksək nəticə göstərən 60 şagird liseyə qəbul ediləcək. Şagirdlər liseydə VII sinifdə təhsil alacaqlar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Qarnizonu Qoşunlarında iyunun 7-də başlayan komanda-qərargah təlimi başa çatıb.*

## Komanda-qərargah təlimi başa çatıb

Təlimin növbəti mərhələsində qoşunların fəaliyyətləri ilə bağlı verilən tapşırıqlar səhra idarəetmə məntəqələrində maket üzərində dəqiqləşdirilib, qəbul edilmiş qərara əsasən bir istiqamətdən digərinə yerdəyişmə zamanı bölmələrin manevretmə qabiliyyəti yoxlanılıb. Qoşunların cəmləşmə rayonlarında, atəş və start mövqelərində yerləşməsi, ümumqoşun birləşmələrinin qarşılıqlı fəaliyyəti praktik olaraq məşq etdirilib. Döyüş atışlarının icrası zamanı tank, motoatıcı, mexanikləşdirilmiş və raket-artilleriya bölmələri tərəfindən şərti düşmən hədəfləri məhv olunub.



Təlimin kompüter dəstəkli mərhələsində qəbul edilmiş qərarların və aparılmış hesabatların reallığı Naxçıvan Qarnizonunun Simulyasiya Mərkəzində kompüterlər üzərində yoxlanılıb. Təlimin sonunda qərargahların və praktik fəaliyyətlərə cəlb edilən bölmələrin tapşırıqları icraetmə vərdişlərinin təhlili aparılıb, növbəti təlimlərə hazırlıqla bağlı birləşmə komandirlərinə müvafiq tapşırıqlar verilib.

**Kənan CƏLİLOV**

## Səhiyyə Nazirliyinin əməkdaşları Ağbulaq İstirahət Mərkəzində oldular

Şahbuz rayonunun Ağbulaq kəndi ölkəmizdə kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənddir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülüb, Ali Məclis Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamı ilə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb. Bu il Ağbulaq Xizək Mərkəzi istifadəyə verilib. Mərkəz qış aylarında dağ-xizək, yay aylarında isə dağ turizmini seçənlər üçün unikal turizm obyektidir. Müntəzəm olaraq muxtar respublikanın nazirlik, komitə, idarə, müəssisə və təşkilatlarının əməkdaşlarının bu ünvanda istirahətləri təşkil edilir. İyunun 12-13-də Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşları Ağbulaq İstirahət Mərkəzində oldular.

İkigünlük istirahət zamanı əməkdaşlar Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış oldular. Elə həmin gün onlar müxtəlif idman oyunlarına qatılıb, şahmat və dama üzrə qüvvələrini sınayıblar.

Mərkəzin stadionunda minifutbol qarşılaşmaları keçirilib. Nazirliyin əməkdaşları kanat gəzintisi vasitəsilə Ağbulağın əsrarəngiz gözəlliyini səmadan izləmə şansı əldə ediblər, kənddə yaradılan şəraitlə tanış olublar. Dünən nahar yeməyindən sonra əməkdaşların Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

Mərkəzdə istirahət edənlər burada keçirdikləri ikigünlük istirahətdən razı qalıblar. Nazirliyin sektor müdiri Sərxan Əkbərov bildirib ki, son dörd ildə üçüncü dəfədir ki, burada istirahətə gəlir. Mərkəzdə yaradılan şərait, göstərilən diqqət onlar üçün əlavə stimuldur. Yaradılan bu şəraitə görə təşkilatçılara minnətdarlığımızı bildiririk.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Qabıllı kəndində yeni futbol meydançası istifadəyə verilib



Naxçıvan Muxtar Respublikasında yeni istifadəyə verilən idman obyektləri arasında futbol meydançaları xüsusi yerə malikdir. Çünki yeni stadionların istifadəyə verilməsi gənc nəslin sağlamlığının qorunması məqsədi daşıyır. Müasir standartlara cavab verən stadionların şəhər və rayonlarla yanaşı, həm də kəndlərdə yaradılması yeniyetmə və gənclərin futbola marağını daha da artırır. Dünən Kəngərli rayonunun Qabıllı kəndində yeni minifutbol stadionu istifadəyə verilib.

Açılış mərasimində çıxış edən Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov bildirib ki, bu gün muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, idmana da xüsusi diqqət və qayğı ilə yanaşılır. Hər il müxtəlif ünvanlarda yeni idman obyektləri inşa edilərək gənclərimizin ixtiyarına verilir. Bu da idmana muxtar respublika rəhbərinin göstərdiyi dövlət qayğısının bariz nümunəsidir. Bu gün istifadəyə verilən stadion rayonda uşaq və yeniyetmələrin, gənclərin asudə vaxtlarının səmərəli təşkil olunmasında müstəsna rol oynayacaq.

Diqqətə çatdırılıb ki, Qabıllı kənd sakini sahibkar Füzuli Hüseynov belə bir təşəbbüsü irəli sürdükdən sonra dövlət tərəfindən müəyyən olunmuş ərazi ayrılıb və yeni stadionun inşası aparılıb.

İcra Hakimiyyətinin başçısı 15 İyun – Milli Qurtuluş Günü münasibətilə bütün rayon sakinlərini təbrik edib, idmançılara və onların məşqçilərinə uğurlar arzulayıb.

Bu münasibətlə bütün idman ictimaiyyətini təbrik edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov diqqətə çatdırıb ki, "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idman sahəsində investisiya mühitinin yaradılması, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi daim diqqətdə saxlanılır. Məhz sahibkarlığa dəstəyin nəticəsidir ki, bu gün belə bir stadion inşa edilib. Ümumiyyətlə, muxtar respublikada uğurlu idman siyasəti nəticəsində mütəmadi olaraq tədbirlər, yarışlar, turnirlər təşkil edilir, hər il idman infrastrukturu müasirləşdirilir. Buna son vaxtlarda Uzunoba gölü ətrafında inşa edilən Təlim-Məşq İdman Kompleksi gözəl nümunədir. İdmanın inkişafına davamlı qayğının göstərildiyi muxtar diyarımızda yaradılan müasir infrastruktur beynəlxalq yarışların yüksək səviyyədə keçirilməsinə imkan verir.

Tədbirdə çıxış edən sahibkarın qardaşı Pərviz Hüseynov və qızı Aytən Hüseynova sahibkarlara yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər. Mənsim Möhbalıyev və Hüseyn Səfərəliyev isə Qabıllı kənd sakinləri adından dövlətimizə və futbol meydançasının tikintisində əməyi olan hər kəsə minnətdarlıq ediblər.

Uzunluğu 42, eni 26 metr olan süni örtüklü stadionun ərazisi 0,6 hektar ərazini əhatə edir. Stadionda işıqlandırma sistemi, eyni zamanda paltardəyişmə və yardımçı otaqlar və sanuzel qovşağı quraşdırılıb. Sahəyə kilid daşları döşənilib, stadionun ətrafında abadlıq işləri aparılıb, asfalt örtüyü salınıb. Eyni zamanda stadionun yanında 1 hektar ərazidə badam bağı salınıb. İki nəfər işlə təmin olunub.

Tədbirin sonunda Şərur və Kəngərli rayon uşaq futbol komandaları arasında yoldaşlıq görüşü keçirilib.

## Velosiped yarışı üzrə muxtar respublika açıq birinciliyi



15 İyun – Milli Qurtuluş Gününə həsr olunan velosiped yarışı üzrə muxtar respublika açıq birinciliyinə yekun vurulub. Yarış "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi istiqamətinə gedən yolun 8000 metrlik məsafəsini əhatə edib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyası tərəfindən təşkil olunan birincilikdə 10-dan çox idmançı mübarizə aparıb. Yarış hava və ekstremal idman növlərinin təbliği, inkişafı, bu sahədə kütləviliyə nail olunması, gənclərin velosiped idman növlərinə olan marağının artırılması və asudə vaxtın səmərəli təşkili məqsədilə keçirilib.

Yekun nəticəyə gəlincə, Elvin Mikayılzadə təyin olunan məsafəni hamıdan tez qət edərək qalib adını qazanıb. Qoşunəli Abdullayevlə Əzəmət Hümbətzadə finişə ikinci və üçüncü çatıblar.

Sonda idmançılara diplom, fəxri fərman və hədiyyələr təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 482